

■ Xəyalə Rəis
*teatrşünas*

# Azərbaycan məktəbliləri Beynəlxalq Məktəblərarası Teatr festivalında iştirak edir

**Festival bizlərə birlik olmağa və bir məqsəd, bir amal, bir istək üçün yola çıxmağa köməkçi olur. Festival bayramdır, hələ bu bayram canlı sənət növlərindən olan teatr bayramıdırsa, bizim üçün iki, üç, hətta dördqat sevincdir. Bu dəfə festivalda məktəb şagirdlərimiz öz məharətini göstərəcək.**

Belə ki, aprelin 15-də Türkiyənin Kayseri Böyükşəhər Bələdiyyəsi tərəfindən təşkil edilən və bu il 14-cü dəfə keçirilən Beynəlxalq Məktəblərarası Teatr festivalında ölkəmizi Azərbaycan Milli Konservatoriyasının təkibində fəaliyyət göstərən İncəsənət Gimnaziyası təmsil edir.

Festival ilk olaraq, iştirakçıların meydana yürüşü ilə başladı. Kayserinin mərkəzi küçələrində baş tutan yürüşdə iştirakçılar səhnə geyimləri ilə meydan küçəsində böyük bir yürüş etdilər. Bu yürüşün səsi-sədası nəinki Türkiyə, hətta Avropa mediasından da eşidildi. Yürüşdə xarici ölkələrdən qatılan iştirakçılar arasında Azərbaycan iştirakçılarına xüsusi önəm verildi. Yürüşün sonunda Kayseri Böyükşəhər Bələdiyyə başqanı Memduh Büyükkılıç festivalda iştirak edən xarici ölkələrin nümayəndələri ilə görüşdü. Bir masa ətrafında iştirakçıları başına toplayan Bələdiyyə başqanı festivalda iştirak edən məktəbliləri bu layihədə görməkdən məmnunluq hissi duyduğunu dilə gətirdi.

Memduh Büyükkılıç incəsənətə, teatra böyük maraq göstərdiyini, bir ölkənin tanınması üçün onun mədəni həyatına baş vurmağın vacibliyini qeyd etdi. Sonra sözü layihənin Azərbaycan üzrə rəhbəri, tərtibatçısı və dekoratoru Günay Mehdizadəyə verən Memduh Büyükkılıç Azərbaycanla Türkiyənin bir millət-iki dövlət olduğunu və hər zaman Azərbaycanı doğma ölkə hesab etdiklərini vurğuladı.

G.Mehdizadə çıxışında bu festivalda olmaqdan məmnunluq hissi duyduğunu qeyd etdi, belə mötəbər layihənin bir parçası olmağın əhəmiyyətini qeyd etdi danışdı: "Teatr böyük bir kütləni öz arxasınca apara bilən, birbaşa insanların qəlbinə yol tapan əsrarəngiz sənət növüdür. Nə xoş bizə ki, festivalda öz tamaşamızla çıxış edəcəyik".

Layihənin kuratoru, Gimnaziyanın rəhbəri Aytən Əhmədova da çıxışında Kayseridə özlərini evdəki kimi hiss etdiklərini bildirdi və xüsusi diqqətə görə bələdiyyə başqanına təşəkkür etdi.

Yürüşdən sonra bələdiyyə başqanının festival iştirakçıları ilə ilk görüşündə Memduh Böyükkılıç Günay Mehdizadəyə "Təşəkkürnamə" və hədiyyələr təqdim edərək Azərbaycan şagirdlərinin bu festivalda iştirak etdiyi üçün məmnunluğunu bildirdi.

Rəsmi görüşdən sonra tədbir Kayserinin Şəhər teatrında təntənəli açılış konsert proqramı ilə davam etdi. Açılış mərasimində Memduh Böyükkılıç və Kayserinin siyasətçiləri, iş adamları və nüfuzlu şəxslər iştirak edirdi.

Festivalı açıq elan edərək ilk çıxışını edən M.Böyükkılıç Kayserinin festivallar şəhəri olacağını və bu festivalların beynəlxalq səviyyədə baş tutacağını ifadə etdi. Sözügedən festivala illər ötdükcə daha çox ölkənin qatılacağını vurğulayan başqan növbəti illərdə bu beynəlxalq tədbrin miqyasının genişlənəcəyini dedi: "Bələdiyyə rəhbəri olmaq təkcə yol salmaq, su gətirmək, ətrafı yaşıllaşdırmaq və ya şəhərin içərisində nizam-intizam yaratmaq deyil. Biz öz milli-mənəvi dəyərlərimizi, mədəniyyətimizi qorumalı və ona sahib çıxmalıyıq. Kayseri Böyükşəhər Bələdiyyəsi olaraq bizlər şəhəri maddi baxımdan deyil, eyni zamanda mənəvi baxımdan da zirvələrə qaldıracaq və gələcəyə daşıyacaq, şəhərimizin mədəni həyatına yön verəcək, canlılıq qatacaq layihələrə imza atırıq. Bizim mədəni həyatımızda teatrın xüsusi yeri var. Bu məqsədlə gənclərimizin teatral istedadlarını önə çıxaracaq, onları mədəniyyət, sənət çərçivəsində birləşdirəcək bir layihə olan Beynəlxalq məktəblərarası teatr festivalı təşkil etdik".

Bələdiyyə başçısı G.Mehdizadəyə təşəkkür edərək, dəvət olunan dörd ölkə adından festival iştirakçılarını salamlamaq üçün ona söz verdi.

Azərbaycanlı rəssam çıxışında teatrın bir bayram olduğunu və bu bayramın sənətə, mədəniyyətə, xüsusən də yetişməkdə olan gənclərin formalaşmasına mühüm təsir göstərdiyini vurğuladı:

"Sizləri bu mötəbər layihədə görməkdən məmnunluq hissi duyuram. Teatr insana, insanı insan dilində izah edən, onu əyani şəkildə göstərən bir sənət nümunəsidir. Bu gün müasir dövrdə əlimizdə qalan, bəlkə də, yeganə canlı sənət növlərindən biridir. Nə xoş bizlərə ki, bu gün məhz bu sənətin işığına toplaşmışıq. Buradan Azərbaycan, Türkiyə, Kipr, Gürcüstan, Bosniya və Hersoqovinanın yaradıcı gənclərini, müəllim heyətini və bütün festival iştirakçılarını salamlayıram və təbrik edirəm. Çünki onlar bu bir həftə ərzində həyatlarında unudulmayacaq günlər yaşayacaqlar".

İncəsənət Gimnaziyasının şagirdlərinin çıxışı festivalın son günündə - aprelin 19-da baş tutacaq. Onlar festivalda Nəsiminin anadan olmasının 650 illiyi ilə bağlı hazırlanmış "Aləmin nəfəsi: Nəsimi" tamaşasını nümayiş etdirəcəklər.

Məlumat üçün bildirək ki, layihənin Azərbaycan üzrə rəhbəri və tərtibatçı rəssamı Günay Mehdizadə, İncəsnət Gimnaziyasının rəhbəri Aytən Əhmədova, Gimnaziyanın teatr bölümünün rəhbəri Hicran Sadıqzadə, tamaşanın rejissoru Elnurə Vəliyeva və layihənin media rəhbəri "Kaspi" qəzetinin müxbiri, teatrşünas Xəyalə Məmmədova da festivalda iştirak edir.

Səhnə əsərində rolları Vəliyev Aliulla (Nəsimi), Namazlı Fidan (Aişə), Həsənzadə Almaz (Fatimə), Quluzadə Rufiz (Nəimi), Salmanzadə Məhəmməd (dərviş) ifa edirlər. Lirik janrda hazırlanmış tamaşanın xronometrajı 25 dəqiqədir.











**Xəyalə Rəis**
**Teatrşünas**